# Xalq teatrları

*İnsan keçmişi xatırlayanda çox vaxt bu, "pessimizmə qapılmaq" kimi dəyərləndirilir. Amma keçmişdə o qədər işıqlı xatirələr var ki, onlar ürəyə rahatlıq, dinclik bəxş edir. Yetmişinci illərdə, hələ virtual aləmin mövcud olmadığı dövrdə xalq teatrları bölgələrdəki səhnəmizin bəzəyinə çevrilmişdi. Hamı böyük maraqla teatrın repertuarını izləyirdi. Əli Bayramlı (indiki Şirvan) şəhərinin tərkibində olan Qazıməmməd qəsəbəsinin (indiki Hacıqabul) mədəniyyət evində iki xalq teatrı fəaliyyət göstərirdi.*

"Vaqif", "Ezop", "Od gəlini", "Həmyerlilər", "Yağışdan çıxdıq, yağmura düşdük", "Adamın adamı" və digər səhnə əsərlərinin tamaşalarını bu teatrların ifasında seyr etmişik. Teatrların cəmi 2 ştat vahidi var idi: rejissor və bədii rəhbər. Aktyorlar əməkhaqqı, qonorar almırdılar. Səhnənin bədii tərtibatı, dekorasiyası, işıqdan tutmuş səs gücləndiriciyə qədər hər şey teatr kollektivi tərəfindən təşkil olunurdu. Rejissorlar Miryusif Mirnəsiroğlu, Rafiq Abuzərov, Qulu İbrahimov, bədii rəhbərlər Müdhət Aydınov, Əkbər Zülfüqarov, Nəsrəddin Abuzərov və başqaları əsl teatr fədailəri idilər. Aktyor Əliheydər Qurbanov (Xalq artisti Ağadadaş Qurbanovun qardaşı), Habil Həsənov, İslam Əliyev, Sədaqət Qarayev, Vəkil Həsənov şəhər sakinləri arasında xüsusi hörmət, nüfuz sahibləri kimi tanınırdılar. Bu adamlar öz könüllərinin hökmü ilə, heç kəsdən maddi yardım ummadan asudə vaxtlarında teatra gəlir, rol alır, məşqlərə davam edir, insanlarda səhnəyə, incəsənətə maraq yaradırdılar. Özləri də iş yerlərindən ayrılmadan. Hazırda həm Hacıqabul, həm Şirvan şəhərlərində xalq teatrları öz fəaliyyətini dayandırıb. Səbəbi ilə maraqlandıq. Sabirabad Regional Mədəniyyət İdarəsinin rəis müavini, uzun illər Şirvan Şəhər Mədəniyyət Şöbəsinin müdiri işləmiş Əziz Abbasov bölgələrdə teatra əvvəlki münasibətin olmadığını dedi:

- Maddi məsələ də rol oynayır. Əvvəllər mədəniyyət evində rejissor və bədii rəhbər ştatı var idi, sonra hər ikisini ləğv etdilər. Bu vəzifəni daşıyanlar teatrın təşkilati işlərini həyata keçirirdilər. Gənclər arasında teatra həvəs göstərənlər indi də az deyil.

Şirvan Mədəniyyət Evinin bədii rəhbəri işləmiş, hazırda respublikanın tanınan aktyorlarından olan Müdhət Aydınov aktyor yoldaşları Əkbər Zülfüqarov və Sədaqət Qarayevlə müntəzəm əlaqə saxladığını bildirdi: "Biz yenə də xalq teatrına əlimizdən gələn köməkliyi etməyə hazırıq".

Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə ilə söhbət zamanı öyrənirik ki, Sabirabadda əvvəllər Adil İskəndərov adına xalq teatrı fəaliyyət göstərib, sonralar teatrın bazasında əlillərdən ibarət "Mübarizlər" adlı teatr yaradılıb. Fərid Qurbanzadə deyir:

- Teatr rayonun mədəni həyatında əhəmiyyətli rol oynayır. Öz maraqlı tamaşaları ilə rayon sakinlərinin hörmətini qazanıb. Repertuarı əsasən Şanlı Qələbəmizə, Müzəffər Ordumuzun igid əsgər və zabitlərinin qəhrəmanlıq şücaətinə həsr olunub. Əlamətdar günlərdə, bayram tədbirlərində "Mübarizlər"in çıxışları anşlaqla qarşılanır.

Fərid Qurbanzadə onu da əlavə edir ki, Şirvan şəhərində də həvəskar aktyorlardan ibarət qrup fəaliyyət göstərir. Qrup yaxın gələcəkdə xalq teatrı adını almağa namizədlər siyahısındadır.

"Azərbaycan Xalq Yaradıcılığının 2019-2023-cü illər üzrə inkişafına dair Strateji Fəaliyyət Planı" hazırlanaraq təsdiq edilib. Həmin fəaliyyət planında xalq teatrlarının əhalinin estetik zövqünün formalaşdırılması və asudə vaxtının səmərəli təşkilində rolunun artırılması üçün sistemli işlərin, o cümlədən festival, müsabiqə, forum və digər tədbirlərin təşkili nəzərdə tutulub. Hazırda respublikanın paytaxt və regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında 37 xalq teatrı fəaliyyət göstərir. Bu teatrlarda milli dramaturgiyanın parlaq əsərləri ilə yanaşı, xarici müəlliflərin də bir sıra əsərləri hazırlanıb tamaşaçılara təqdim edilir. Bu münasibətlə III Respublika Xalq Teatrları Festivalının seçim turları başa çatıb. Festivalın münsiflər heyətinin üzvləri bölgələrimizi qarış-qarış gəzərək xalq teatrlarının tamaşalarını izləyib və onlara ustad dərsləri keçərək öz məsləhətlərini verirlər. Beləliklə, xalq teatrlarının inkişafına yaxşı stimul var. "Strateji fəaliyyət Planı" həyata vəsiqə alıb icra olunduqda, xalq teatrlarının inkişafında yeni mərhələ başlayacaq.

**Tofiq HÜSEYN,**
**"Respublika".**

Respublika .- 2022.- 8 dekabr.- S.7.